

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 184 (21.085)

26 sentyabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Moskva şəhərinin meri Sergey Sobyaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin dinamik şəkildə uğurla inkişaf etdiyini bildirdi. Moskva şəhəri ilə mövcud olan ənənəvi əlaqələrin önəmini vurğulayan dövlətimizin başçısı son dövrlərdə Rusiya paytaxtında həyata keçirilən geniş yenidənqurma işlərinin böyük maraq doğurduğunu bildirdi. Bakı şəhərində də sürətli inkişaf və abadlıq işlərinin həyata keçirildiyini deyən Prezident İlham Əliyev paytaxtlarımız arasında təcrübə mübadiləsinin səmərəli olacağını qeyd etdi.

Prezident İlham Əliyev Moskva şəhərinin meri Sergey Sobyaninin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi və ölkəmizlə daha yaxından tanış olmaq işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğuladı.

Moskva şəhərinin meri Sergey Sobyanin nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirdi. Ticarət dövriyyəsinin artmasının önəmini vurğulayan Moskva şəhərinin meri bildirdi ki, Azərbaycandan Rusiya paytaxtına göndərilən ərzaq məhsullarının həcmi üç dəfə artıb və bu həcmin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var.



## Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının konfransı keçirilib



*Sentyabrın 25-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının konfransı keçirilib. Konfransı giriş sözü ilə Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti idarə heyətinin sədri Namiq Novruzov açıb.*

Konfransın gündəliyinə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası sədrinin hesabatı, konfederasiyanın idarə heyətinin yeni tərkibinin, idarə heyəti sədrinin və nəzarət-təftiş komissiyasının seçilməsi məsələləri daxil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rafael Babayev çıxış edərək bildirib ki, bazar iqtisadiyyatının əsas atributlarından olan, azad rəqabət şəraitində sürətlə inkişaf edən sahibkarlıq təkcə cəmiyyətin yox, həmçinin ayrıca götürülmüş birliyin və ya fərdin inkişafında özünəməxsus mühüm rol oynayır. Eyni zamanda sahibkarlıq iqtisadi tərəqqinin daha sürətli xarakter almasına böyük töhfələr verən, bəzi hallarda isə bu tərəqqinin əsasına çevrilən bir fəaliyyət sahəsidir. Ölkəmizin, o cümlədən muxtar respublikamızın iqtisadi inkişafını xarakterizə edən ən mühüm cəhətlərdən biri güclü sahibkarlıq sinfinin formalaşmasıdır. Belə ki, əgər 1995-ci ildə Ümumi Daxili Məhsul istehsalında özəl bölmə 15 faizlik xüsusi çəkiyə malik idisə, bu göstərici artaraq cari ildə 87 faizi ötüb. Bu fakt sahibkarlıq fəaliyyətinin iqtisadi tərəqqidəki əhəmiyyətini təsdiq etməklə, onun daim diqqət və qayğı ilə əhatə olunduğunu da sübut edir. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında 2006-cı ildə Sahibkarlar Konfederasiyası yaradılıb. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri sahibkarların problemləri ilə yaxından tanış olmaq məqsədilə hər il onlarla görüşür, sahibkarlıq fəaliyyətinə dəstək məqsədilə aidiyyəti dövlət orqanlarına müvafiq tapşırıqlar verir. Sahibkarlara göstərilən maliyyə dəstəyinin həcminin ildən-ilə artırılması, iş adamlarının fəaliyyətinə kənar müdaxilələrin aradan qaldırılması, antiinhisar tədbirlərinin gücləndirilməsi, biznes subyektlərinin qeydiyyatının və lisenziya sisteminin sadələşdirilərək "bir pəncərə" prinsipi əsasında aparılması öz müsbət nəticələrini göstərməkdədir. "Bir pəncərə" prinsipinin tətbiq olunmağa başlandığı 2008-ci ilin əvvəllərindən 2014-cü il sentyabrın 1-dək muxtar respublikada 271 hüquqi və 10 min 59 fiziki şəxsin qeydiyyata alınması öz imkan və qabiliyyətlərindən faydalanaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə əlverişli şəraitin yaradıldığını bir daha təsdiq edir. Vurğulanıb ki, təkcə cari ilin ötən dövründə bank və kredit təşkilatlarının xətti ilə sahibkarlıqla məşğul olmaq istəyən fərdi təsərrüfat subyektlərinə 5 milyon 943 min, özəl sektorda yeni istehsal sahələrinin yaradılmasına isə 8 milyon 66 min manat həcmində kreditlər verilib.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Abbas Babayev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı daim diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, Naxçıvan sahibkarlığın inkişafı üçün hər cür şəraitin mövcud olduğu regiona çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə göstərdiyi diqqət və qayğı, sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin davamlılığı sahibkarlara səmərəli fəaliyyət göstərmək imkanı verib. 2006-cı ilin mart ayında yaradılan konfederasiya fəaliyyətinin ilk günlərindən muxtar respublika ərazisində fəaliyyət göstərən sahibkarları öz ətrafında birləşdirməyə başlayıb. Qeyd olunub ki, hazırda muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərində 80 mindən çox iş yeri mövcuddur. Sahibkarlar Konfederasiyası fəaliyyəti zamanı öz nizamnaməsinə uyğun müəyyən işlər görüb, iş adamlarını baş verən iqtisadi yeniliklərlə daim maarifləndirməyə, onlara lazımi dəstək göstərməyə çalışıb. Eyni zamanda konfederasiya həm ölkəmizdə, həm də ölkəmizdən kənarda keçirilən beynəlxalq sərgilər, seminarlar, konfranslar və digər tədbirlərlə bağlı sahibkarlar arasında zəruri materiallar yayıb, sahibkarların həmin tədbirlərdə iştirakını təmin edib. Konfederasiyanın fəaliyyətinin əsas istiqamətlərindən biri sahibkarların maraq və mənafelərinin qorunmasıdır. Buna görə də ötən dövr ərzində sahibkarlarla çoxsaylı görüşlər keçirilib, müzakirələr aparılıb, sahibkarlar tərəfindən ünvanlanan sorğuların nəticələri ümumiləşdirilərək həll olunması üçün müvafiq dövlət orqanları qarşısında məsələlər qaldırılıb.

Sonra səsvermə yolu ilə konfederasiyanın idarə heyətinin yeni tərkibi seçilib.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidovun konfederasiyanın sədrliyinə namizəd üçün təklifi dinlənilib. Bildirilib ki, Sahibkarlar Konfederasiyasının yaradılmasında məqsəd muxtar respublikada sahibkarların fəaliyyətini əlaqələndirmək, mənafelərini təmin etmək, sahibkarlara xaricdə və ölkə daxilində tərəf-müqabillərin tapılmasında kömək etmək, onların informasiya təminatında iştirak etmək və digər mühüm işlərin görülməsindən ibarətdir. Konfederasiyanın qarşısında duran bu vəzifələrin həyata keçirilməsi üçün seçiləcək şəxs həm muxtar respublikada, həm də Azərbaycanda və xarici ölkələrdə olan sahibkarlıq subyektləri ilə geniş əlaqələrə malik olmalıdır ki, gələcəkdə xarici investisiyaları muxtar respublika iqtisadiyyatına təşviq edə bilsin və ya yerli məhsulların ixrac olunmasında fəallıq nümayiş etdirə bilsin.

Tədbirdə "Naxçıvan Duz istehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri Anar Əsədullayev, "Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri Seyfəddin Rəhimov və "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri Teymur Rzayevin çıxışları olub. Konfransda "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının direktoru Vüqar Abbasov səsvermə yolu ilə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının idarə heyətinin sədri seçilib.

"Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının direktoru Vüqar Abbasov çıxış edərək ona göstərilən etimada görə minnətdarlığını bildirib.

Konfransda səsvermə yolu ilə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının nəzarət-təftiş komissiyasının yeni tərkibi də seçilib.

## Yollar yenidən qurulur

Yol tikintisi və təmiri sahəsində Şərur rayonunda göstəricilər ildən-ilə yüksəlir. Artıq əksər yaşayış məntəqələrində daxili və kəndarası yollara asfalt örtük salınmışdır ki, bu da nəqliyyat vasitələrinin, eyni zamanda onlardan istifadə edən sərnişinlərin rahat gediş-gəlişinin təmin olunması deməkdir.

Şərur Rayon Yol Təmir-Tikinti İdarəsi cari ilin səkkiz ayında da uğurlu nəticələr əldə etmişdir. Bu müddətdə idarənin gücü ilə 1 milyon 367 min 942 manatlıq cari və əsaslı təmir işləri görülmüş, o cümlədən 4 kilometrlik Şərur şəhəri-Kürkənd yolu yenidən qurulmuş, avtomobillərin Şərur Rayonlararası Müayinə Mərkəzinin həyəti və ətrafdakı dayanacaq üçün nəzərdə tutulmuş geniş ərazi asfaltlanmış, rayon mərkəzindəki yollarda cari təmir işləri aparılmışdır.

Hazırda Püsyan kəndindən Naxçıvan-Sədərək avtomagistralınadək olan 3 kilometrlik, həmçinin 6 kilometrlik Xanlıqlar-Püsyan, 11 kilometrlik Dizə-Axura avtomobil yolları, Diyadin kəndindəki 1,8 kilometrlik kəndarası yol, geniş şəkildə quruculuq işləri aparılan digər kəndlərdəki yollar da əsaslı şəkildə yenidən qurulur.

Cəfər ƏLİYEV

## Əhalinin hüquqi maarifləndirilməsi ilə bağlı tədbirlər davam etdirilir

*Ordubad Rayon Prokurorluğu Biləv Kənd Mərkəzində maarifləndirici tədbir keçirib. Tədbiri giriş sözü ilə Biləv kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Niyazi Quliyev açıb.*

Ordubad rayon prokuroru Yusif Abdullayev "Enerji ehtiyatlarından qənaətlə istifadə olunmalıdır" mövzusunda çıxış edib. Qeyd olunub ki, əhalinin fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, içməli su ilə təminatı bu gün Naxçıvan Muxtar Respublikasında prioritet vəzifələr sırasındadır. Bu baxımdan enerji ehtiyatlarının talanmasına qarşı mübarizənin gücləndirilməsi istiqamətində təsirli tədbirlərin görülməsi, əhalinin hüquqi maarifləndirilməsinə diqqətin artırılması zəruridir.

Yığıncaqda təbii qaz, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin nümayəndəsi olmayan şəxslər tərəfindən bu şəbəkələrə qanunsuz qoşulmaqla həmin enerji resurslarına xeyli miqdarda ziyan vurulmasına görə təqsirli bilinən şəxsin 1000 manatdan 3000 manatadək məbləğində cərimə və ya 2 ilədək müddətə islah işləri ilə cəzalandırılmasının nəzərdə tutulduğu, eyni əməllərin külli miqdarda, yəni 7000 manatdan artıq məbləğdə ziyan vurulmaqla törədilməsinə görə təqsirli bilinən şəxsin daha ağır cəzalara məruz qala biləcəyi kənd sakinlərinin diqqətinə çatdırılıb.

Ordubad rayon prokurorunun köməkçisi Zamin Nəzərəliyev çıxış edərək ətraf mühitin mühafizəsi əleyhinə yönəldilmiş cinayətlər və inzibati xətalar, xüsusən balıqları və başqa su heyvanlarını qanunsuz tutma, qanunsuz ovetmə və qanunsuz ağackəsmə ilə müşayiət olunan ictimai təhlükəli əməllər haqqında, bu əməllərə görə cinayət və inzibati xətalar qanunvericiliyində nəzərdə tutulan cəzalar barədə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

## Muxtar respublikada taxıl əkininə başlanılıb

Ötən ilin payızında və cari ilin yazında torpaq mülkiyyətçiləri tərəfindən 2014-cü ilin məhsulu üçün 29697,7 hektarı payızlıq, 6052 hektarı isə yazlıq olmaqla, 35749,7 hektar sahədə taxıl əkilmişdi. Sahələrdə bol məhsul yetişdirilib. Əvvəlcədən həyata keçirilən tədbirlər taxıl tədarükünü optimal müddətdə başa çatdırmağa və məhsulu itkisiz toplamağa imkan verib, ümumilikdə, muxtar respublikada 103 min 70 ton məhsul tədarük edilib. Bunun 77 min 288 tonu buğda, 25 min 782 tonu arpadır. Məhsuldarlıq 28,8 sentnerdir.

Taxılçılar 2015-ci ilin məhsulu üçün hazırlıq tədbirlərinə başlayıblar. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, keyfiyyətli şum aparılması məqsədilə sahələrə çıxarılacaq texnikalar təmir olunub. Sentyabrın 25-dək 4315 hektar sahədə şum aparılıb. Şum qaldırılmasında ilk yerdə Kəngərli rayonudur. Bu bölgədə 1091 hektar sahə əkinə hazır vəziyyətə gətirilib. Babəkin torpaq mülkiyyətçiləri 1060 hektar sahədə şum qaldırılmasına nail olublar. Şərurlular 909 hektarda şum qaldırıblar. Culfa rayonunda bu rəqəm 531 hektar təşkil edir. Dağlıq zonada yerləşən Şahbuz rayonunda 226, sərhəd bölgəsi Sədərəkdə 250, Naxçıvan şəhərində 125, Ordubad rayonunda 123 hektar sahə şumlanıb.

Məlumat üçün onu da bildirək ki, Sədərək rayonunda taxıl əkininə də start verilib. Belə ki, bölgədə 70 hektar sahədə buğda əkilib, əkilmiş sahənin 35 hektarı suvarılıb.

Xəbərlər şöbəsi

# Tarixinin qızıl dövrünü yaşayan Naxçıvan Muxtar Respublikası regional cazibə mərkəzinə çevrilib

*Son illər hədər yerə Naxçıvan Muxtar Respublikasını Cənubi Qafqaz ölkələri üçün inkişaf modeli hesab edilən Azərbaycan Respublikasının parlayan ulduzu adlandırmırlar. Çünki qədim diyarımız, həqiqətən də, özünün yüksəliş, inkişaf, intibah, qısaca, tarixinin qızıl dövrünü yaşayır. Bir sıra beynəlxalq ekspertlər Naxçıvanı həm də regional cazibə mərkəzi adlandırırlar. Səbəb isə çox sadədir: inkişaf olan məkanlarda əldə olunan nailiyyətlər, tətbiq edilən yeniliklər, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, elmə, təhsilə, mədəniyyətin inkişafına göstərilən xüsusi diqqət və qayğı, aparılan genişmiqyaslı islahatlar, müasir dövrün tələblərinə həmahəng olan məqsədyönlü işlər və sair istər insanların, istərsə də xalqların diqqətini cəlb edir, maraq yaradır. Hər kəsi təəccübləndirən digər bir mühüm amil isə bütün bu nailiyyətlərin 23 ildir, davam edən blokada şəraitində əldə edilməsidir.*

Naxçıvan Muxtar Respublikasının ağır blokada şəraitində sosial-iqtisadi yüksəlişə nail olmasını izah etməyə çalışanlar, əsasən, üç məsələ ətrafında eyni mövqedən çıxış edirlər. Bunlardan birincisi, muxtar respublikada ulu öndərimiz Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarının dərhal, təxirə salınmadan yerinə yetirilməsi, ikincisi, qədim diyarın muxtariyyətidir. Sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş dövlət proqramlarının dəqiqliklə icrası, islahatların günün tələbləri səviyyəsində aparılması da mühüm amil kimi diqqəti cəlb edir. Təbii ki, bütün bunları böyük şövqlə həyata keçirmək üçün gərək insanlarda yüksək vətənpərvərlik ruhu, Vətən sevgisi, yurda, xalqa məhəbbət, dövlətə, dövlətçiliyə sədaqət hissləri olsun. Əminliklə demək olar ki, Naxçıvanda bütün işlər Vətənə, xalqa, dövlətə, dövlətçiliyə xidmət meyarları çərçivəsində görülür.

### Naxçıvan Muxtar Respublikasının inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

Məsələyə daha geniş prizmadan nəzər yetirsək, görərik ki, yuxarıda qeyd etdiyimiz amillər özündə böyük həqiqətləri əks etdirir. "Odlar diyarı", həmçinin bütövlükdə, türk dünyası üçün çox böyük strateji əhəmiyyət kəsb edən Naxçıvan Muxtar Respublikasının yüksəlişi, sosial-iqtisadi baxımdan güclənməsi, ərzaq təhlükəsizliyinin təmin olunması, torpaq bütövlüyünün qorunması və digər mühüm məsələlər dahi rəhbər Heydər Əliyevin siyasi xəttinin əsas tərkib hissələrindən biri idi. Təsadüfi deyil ki, ulu öndərimiz 1969-cu ildə birinci dəfə siyasi hakimiyyətə gəldiyi ilk gündən Azərbaycan üçün taleyüklü məsələlərin həllinə xüsusi diqqət yetirmiş, Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə xüsusi əhəmiyyət vermişdir.

Faktlara nəzər yetirsək, bunu daha aydın görə bilərik. Məsələn, 1965-ci ilə nisbətən 1968-ci ildə qədim diyarımızda sənaye məhsulu 20 faiz artdığı halda, 1970-ci ildə bu rəqəm 83 faiz olmuşdur. 1971-75-ci illərdə xalq təsərrüfatına əsaslı vəsait qoyuluşu 46 il (1925-70-ci illər) ərzində qoyulmuş əsaslı vəsaitdən xeyli çox olmuşdur.

Həmin illərdə Araz çayı üzərində iri su anbarı ilə birlikdə su elektrik stansiyası, Alt Trikotaj Məmulatları Fabriki, yeni mineral su zavodu, Şüşə Qablar Zavodu, Taxıl Məhsulları Kombinatı, Evtikmə Kombinatı, Dəmir-Beton Məmulatları Zavodu, şərabçılıq müəssisələri, süd zavodu, bütövlükdə, 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Naxçıvan Xalça Kombinatının, Şərur Konserv Zavodunun, yeni dəmir-beton məmulatları müəssisələrinin tikintisinin başa çatdırılması, mövcud müəssisələrin, xüsusən Naxçıvan Elektrotexnika Zavodunun, Ordubad Konserv Zavodunun və İpək Fabrikinin yenidən qurulması sahəsində əsaslı tədbirlər həyata keçirilmişdir.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasında 1969-cu ildə 1, 1970-1979-cu illərdə 13, 1981-1985-ci illərdə 7 (cəmi 21 iri müəssisə) sənaye müəssisəsi tikilmiş, bir neçə sənaye müəssisəsi əsaslı surətdə yenidən qurulmuşdur. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır. 1970-ci illərdə muxtar respublikada sənayenin sahə quruluşunda xeyli dəyişikliklər baş vermişdir. Maşınqayırma və metal emalı, tikinti materialları və yeyinti sənayesinin ümumi məhsul istehsalında xüsusi çəkisi artmışdır.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra da Naxçıvanın sosial-iqtisadi inkişafına xüsusi əhəmiyyət vermiş, onun yolunu davam etdirən vətənpərvər naxçıvanlılar müəyyənləşdirilmiş hədəflərə doğru inamla irəliləmişlər.

### Naxçıvanın inkişafına səbəb olan digər amil: ulu öndərin tarixi tövsiyələri və muxtariyyət

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizin ərazi bütövlüyünün təmin olunmasını daim diqqət mərkəzində saxlamışdır. Ulu öndərimiz Azərbaycan Respublikası Konstitusiya Komissiyasının 1998-ci il yanvarın 14-də keçirilən iclasında respublikamız üçün mühüm əhəmiyyətə malik olan Naxçıvanın muxtariyyəti məsələsinə toxunaraq demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***



Xalqımızın böyük oğlu Heydər Əliyevin bu sözləri gələcək nəsillərə tarixi vəsiyyətdir, böyük şəxsiyyətin qarşımıza qoyduğu mühüm vəzifədir. Görkəmli dövlət xadimi Heydər Əliyevin bu məsələni xüsusi vurğulaması da səbəbsiz deyil. Çünki tarix də sübut edib ki, Naxçıvanın muxtariyyəti onun mövcudiyyəti ilə həmahənglik təşkil edir.

Qədim diyarın Azərbaycanın tərkibində saxlanılması məqsədilə muxtariyyətə nail olmaq yolunda qəhrəman, igid naxçıvanlılar çox böyük fədakarlıqlara qatlaşmış, çətinliklərə sinə gərmişlər və nəhayət, ümummilli məqsədə nail olmuşlar. 1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK-in dekreti ilə Naxçıvan Muxtar Diyarı Naxçıvan MSSR-ə çevrilmişdir.

Sonrakı proseslər göstərdi ki, məkrli düşmən Naxçıvanın muxtariyyətə nail olmaqla Azərbaycanın tərkibində qalması reallığı ilə heç vaxt barışmamışdır. Çünki ermənilər hələ sovet dönəmində muxtariyyətin ləğv edilməsi ilə bağlı mərkəzi hakimiyyət qarşısında məsələ qaldırmağa çalışmış, ancaq yenə də buna nail ola bilməmişlər. Onu da deyək ki, keçmiş ittifaq dövründə Naxçıvanın muxtariyyətinin saxlanılması məsələsində Heydər Əliyev amili çox mühüm rol oynamışdır. Ermənilər ulu öndərin Moskvada əsaslı siyasi dairələrdəki nüfuzu qarşısında aciz qalmış, heç bir istəklərini reallaşdıra bilməmişlər.

1980-ci illərin sonlarında Naxçıvan yenə təhlükələrlə üzü-üzə qaldı. 90-cı illərin əvvəllərində ermənilərin Naxçıvana basqınları bölgədə çox mürəkkəb və təhlükəli vəziyyət yaratmışdı. Ancaq muxtar respublikanın qarşılaşdığı vəziyyət, üzləşdiyi çətinliklər yenə də qorxmaz və igid övladların bacarığı ilə aradan qaldırıldı. Xüsusilə 1990-cı il iyulun 22-də dünya miqyaslı siyasi xadim Heydər Əliyevin Naxçıvana gəlməsi, yerli əhali ilə birlikdə olması bu diyarı gələcək bəlalardan qurtarmış, əhalinin inam və mübarizəsinə güc və qüvvət vermişdir.

Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi, yeritdiyi uzaqgörən siyasət bölgəni və əhalini gözlənilən bəlalardan xilas etmişdir. Xarici təhlükənin aradan qaldırılması, daxili sabitliyin və inkişafın əsası bu illərdə qoyulmuşdur.

### Naxçıvan yüksəliş, intibah dövrünə qədəm qoyur

Qeyd etdiyimiz kimi, ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra da Naxçıvan Muxtar Respublikasının inkişafını, onun təhlükəsizliyinin təmin edilməsini, mövcud problemlərinin həllini daim diqqət mərkəzində saxlamışdır.

Hər birimizə məlumdur ki, 1990-cı illər əvvəllərində Naxçıvan Muxtar Respublikası ən ağır dövrünü yaşamış, təbii qazdan məhrum olan əhali fasilələrlə verilən elektrik enerjisindən istifadə etmək məcburiyyətində qalmışdı. Bununla birlikdə, blokada şəraitinin yaratdığı çətinliklərin aradan qaldırılması, alternativ yollarla bir sıra problemlərin həll olunması istiqamətində işlər davam etdirilirdi. Təəccüblü burasıdır ki, məhz belə bir şəraitdə də inkişafa, necə deyərlər, yol açılmışdır.

Son 19 il ərzində həyata keçirilən məqsədyönlü siyasət sayəsində Naxçıvan davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətlər fonunda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

1996-cı ildən etibarən bir sıra sənaye müəssisələrinin fəaliyyəti bərpa olunmuş, yeni istehsal sahələri yaradılmış, əvvəllər istehsal edilməyən yeni sənaye məhsullarının istehsalına başlanılmışdır. Müqayisə üçün deyək ki, 2003-cü ildə muxtar respublikada 17,6 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 1993-cü ildəkindən 3,4 dəfə çoxdur.

1993-2003-cü illər ərzində muxtar respublikada əsas kapitala 147 milyon 394 min manat həcmində investisiya yönəldilmiş, həyata keçirilən islahatlar aqrar-sənaye potensialından səmərəli istifadə edilməsi üçün zəmin yaratmışdır.

### Sosial-iqtisadi inkişafın Naxçıvan modeli 2003-2013-cü illərdə böyük uğurların əsasını qoymuşdur

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın dayanıqlı və davamlı inkişafını özündə təcəssüm etdirən sosial-iqtisadi modelin başlıca istiqaməti iqtisadiyyatın dinamik inkişafına və bu əsasda da sakinlərin rifahının yüksəldilməsinə yönəldilmişdir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə hesablanmış inkişaf strategiyasına əsaslanan bu modelin yeni keyfiyyət mərhələsində müvəffəqiyyətlə icra olunması nəticəsində qədim diyarımızın əldə etdiyi uğurlar ardıcıl xarakter almışdır. Bununla da, 2003-2013-cü illərdə ərzaq və enerji təhlükəsizliyi tam təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" muxtar respublikada investisiya potensialından tam və kompleks şəkildə istifadə olunmasını, yeni sənaye, kənd təsərrüfatı, xidmət müəssisələrinin yaradılmasını, məşğulluq səviyyəsinin yüksəldilməsini, əhalinin təhsil, səhiyyə və digər sosial təminatlarının daha da yaxşılaşdırılmasını təmin etmişdir.

İqtisadi inkişafın əsas ölçüsü hesab olunan Ümumi Daxili Məhsul istehsalının həcmi 2013-cü ildə 2 milyard 339 milyon manat olmuşdur ki, bu da 2003-cü ildəki müvafiq göstəricini müqayisəli qiymətlərlə 8,4 dəfə üstələmişdir.

2013-cü ildə hər bir nəfərə düşən ÜDM-in həcmi 2003-cü ilə nisbətən müqayisəli qiymətlərlə 6,9 dəfə artaraq 5423 manat səviyyəsində olmuşdur.

2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə, əsas kapitala yönəldilən investisiyalar 16,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,7 dəfə, nəqliyyat sektorunda yük daşınması 2,6 dəfə, informasiya və rabitə xidmətləri 10,3 dəfə, pərakəndə əmtəə dövriyyəsi 11,1 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 12,9 dəfə, ixracın həcmi 96,6 dəfə, icmal büdcənin həcmi 12,7 dəfə, əhalinin gəlirləri 10,2 dəfə, hər bir nəfərə düşən gəlirlər 8,8 dəfə, orta aylıq əməkhaqqı isə 9,8 dəfə artmışdır.

Muxtar respublika üçün ən önəmli olan məsələlərdən biri də enerji təhlükəsizliyinin təmin edilməsi idi. Sevindirici haldır ki, qeyd etdiyimiz illər ərzində bu məsələ öz həllini tapmışdır. Əldə edilən ən böyük uğurlardan biri və birincisi də budur. Əgər 2003-cü ildə muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, aparılan məqsədyönlü islahatlar nəticəsində bu müəssisələrin sayı 7-yə çatdırılmış, həmçinin Ordubad rayonunda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının inşası davam etdirilməkdədir.

Bu dövr ərzində muxtar respublikada 9 elektrik yarımstansiyası yaradılmış, 4 elektrik yarımstansiyası isə yenidən qurulmuşdur. Dövlət başçısı cənab İlham Əliyevin aprelin 7-də Naxçıvana səfəri zamanı "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının işə salınması mərasimi keçirilmişdir. Bu, Naxçıvanın elektrik enerjisi ilə təmin olunmasının növbəti uğurlu bir hadisə kimi yaddaşlarda qalmışdır.

14 illik fasilədən sonra 2005-ci il dekabrın 20-də muxtar respublikaya mavi yanacağın verilməsinin bərpa olunması isə əhalidə çox böyük sevinc hissləri yaratmışdır. İnsanlar, sözün həqiqi mənasında, uzun illərin çətinliklərindən xilas olmuşlar. Təkcə bu fakt əldə edilən uğurların miqyasını əks etdirməyə kifayət edər.

### 2014-cü ilin ilk 8 ayının nəticələri sosial-iqtisadi inkişafın növbəti göstəricisidir

Bu gün Naxçıvanın sosial-iqtisadi inkişafı sürətlə davam edir. 2014-cü ilin 8 ayının nəticələri də belə deməyə əsas verir. Təbii ki, qeyd olunan inkişaf, əsasən, əhalinin həyat şəraitinin yaxşılaşdırılması, gəlirlərinin artmasında özünü göstərir. Budur, ötən 8 ay ərzində də Naxçıvan Muxtar Respublikasında əhalinin gəlirlərinin artımı davam etməkdədir. Cari ilin yanvar-avqust aylarında muxtar respublikada gəlirlər 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artaraq 1 milyard 92 milyon 215 min manatdan çox olmuş, onun hər bir nəfərə düşən həcmi isə 1,5 faiz yüksələrək 2499,6 manat təşkil etmişdir.

İnfrastrukturun günün tələbləri səviyyəsində qurulması qədim diyarımızda əsas prioritetlərdən biridir. Fəxrlə deyə bilərik ki, hər bir digər məsələdə muxtar respublika bu il də Azərbaycanda liderliyini qoruyub saxlamaqdadır. Ötən 8 ay ərzində infrastruktur quruculuğu çərçivəsində əsas kapitala 620 milyon 18 min manat həcmində investisiya yönəldilmişdir ki, bunun da 540 milyon 482 min manatı və ya 87,2 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür. Abadlıq-quruculuq işləri bu gün də sürətlə davam etdirilir.

### Nəticə

Naxçıvan Muxtar Respublikasının inkişafını əks etdirən yüzlərlə faktlar var və təbii ki, bütün bunları bir məqaləyə sığdırmaq olmaz. Bu bir daha göstərir ki, 23 ildir, blokada şəraitində yaşayan qədim diyarımız bu gün çağdaş intibah dövrünü yaşayır, yüksək sürətlə inkişaf edir.

Ölkə rəhbəri cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın və ümumilikdə, türk dünyasının mühüm strateji məkanıdır. Qədim yurda göstərilən diqqət və qayğı Azərbaycanın milli maraqlarının tələbidir. Bu mənada 2003-cü ildən bu tərəfə dövlət başçımızın muxtar respublikaya 11 dəfə səfər etməsi, burada aparılan genişmiqyaslı, möhtəşəm abadlıq-quruculuq işləri ilə, dahilər yurdunun təhlükəsizliyinə dair məsələlərlə yerindəcə tanış olması, qarşıda duran vəzifələri müəyyənləşdirməsi, lazımi tapşırıqlarını və tövsiyələrini verməsi təsadüfi deyil. Hər səfərdə isə Naxçıvanda aparılan sosial-iqtisadi və mədəni quruculuq, çoxsaylı yeni iş yerlərinin açılması, əhalinin rifahının yüksəlməsi Prezident İlham Əliyevi həmişə razı salmış, məmnun etmişdir.

*Azərbaycan Prezidenti bu il aprelin 7-də qədim diyara növbəti səfəri zamanı Naxçıvanda görülmüş işləri yüksək qiymətləndirərək demişdir:* ***"Son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm".***

**Rauf ƏLİYEV**

*Məhəmməd Tağı Sidqi – 160*

# Məhəmməd Tağı Sidqinin pedaqoji və ədəbi irsini öyrənmək bütün dövrlər üçün aktualdır

Görkəmli maarifçi, böyük mütəfəkkir Məhəmməd Tağı Sidqi tanınmış qələm sahibidir. Maarifçilik ideyalarının həm elmi, həm təcrübi sahədə inkişafına təməl olan Sidqi yaradıcılığı xalqın dünyagörüşünün formalaşmasına təsir edən əsərlər məcmusudur. Naxçıvan torpağının yetirməsi olan Məhəmməd Tağı Sidqi xalqının, millətinin maariflənməsi uğrunda mübarizə aparan ilk maarif fədailərindəndir. O, vətənin ağır sınaqlara məruz qaldığı bir zamanda qorxmadan, çəkinmədən maarifçilik uğrunda mübarizə aparmışdır. Sidqi bu mübarizədə sözün gücündən ustalıqla istifadə edir, kitablar yazır, dərsliklər hazırlayırdı. "Əncüməni-şüəra" ədəbi məclisinin fəal üzvü olan M.T.Sidqi yaradıcılığında həm aşiqanə, həm də ictimai motivli nümunələrə rast gəlirik. Elmə rəğbət, məktəbə çağırış motivli əsərlərində yazıçı təcrübəli pedaqoq kimliyi ilə diqqət çəkir.

Bu mübarizədə əsas məqsəd isə gələcəyimiz olan uşaqlarımızı maarifləndirmək idi:

*Ey uşaqlar, edək biz də qeyrət,*
*Taki təhsil edək adəmiyyət,*
*Bəlkə, bizdən gedə bu cəhalət.*
*Çəkməyək xalqdan bari-minnət,*
*Keçməmiş, keçməmiş vaxt-fürsət,*
*Eyləyək, eyləyək dərsə diqqət.*

Sidqi elmə, biliyə çağırış motivli əsərlərini yalnız uşaqlar üçün deyil, böyüklər üçün də nəzərdə tutmuşdur. O deyirdi: "Ağıllı ata-ana övladını elmə və tərbiyətə rağib edəndir. Balasını bikar və əziz saxlayan adam övladının düşmənidir".

Yadımdadır, Ordubad şəhərindəki 2 nömrəli məktəbin giriş qapısında yazılırdı: "Məktəb cəhalət dərdinin dərmanı, mərifət bağının xiyabanıdır", həmçinin Əndəmic kənd orta məktəbinin giriş qapısında yazılmış:

*"Müəllim – bu ada baş əyir cahan,*
*Ondan hansı dahi dərs almamışdır?*
*Müəllim sözünə qulaq asmayan*
*Həyatda heç zaman ucalmamışdır" –*

misraları ilə tanımışdıq o zamanlar Sidqini... O vaxtlar onun haqqında nə oxumaq imkanımız vardı, nə də onun yazdığı qiymətli nümunələri əldə etmək şansımız. Ancaq mən əminəm ki, mənim kimi bir çox insanların indi də o misralar xatirindədir.

Bu günlərdə elmi-tədqiqat işimlə bağlı olaraq, AMEA-nın Əlyazmalar İnstitutunun arxivində oldum. Burada Məhəmməd Tağı Sidqinin şəxsi fondu yerləşir. Bilindiyi kimi, zəngin yaradıcılıq irsinə malik Sidqi təkcə maarifçilik fikirləri ilə çıxış etməmişdir. O həmçinin geniş bədii yaradıcılıqla məşğul olmuş, dövrün ziyalıları ilə məktublaşmış, onlarla dərin fikir mübadiləsi aparmışdır. Bununla birlikdə, Sidqi o dövrün mətbuat orqanlarında ictimaiyönlü fikirlərlə çıxış etmiş, xalqın aydın gələcəyi uğrunda qələm çalmışdır. Məhəmməd Tağı Sidqi yaradıcılığından bəhs edən bir çox elmi məqalələr yazılmış, tədqiqat işləri aparılmışdır. Sidqinin əsərləri kitab halında da çap olunmuşdur. Lakin Azərbaycanın incisi Ordubadın yetirdiyi Məhəmməd Tağı Sidqiyə ən böyük, ən layiqli dəyəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında imzaladığı sərəncamla verdi. Məhəmməd Tağı Sidqinin Ordubad şəhərində yaşadığı evdə muzey yaradılması Sidqi irsinə verilən ən yüksək qiymətdir.

Məhəmməd Tağı Sidqi maarifçiliyin inkişafında misilsiz xidmətləri olan ziyalıdır; onun əsərləri, dəyərli fikirləri cahil cəmiyyətə nur paylayırdı. Sidqi qızların maariflənməsi uğrunda da çalışırdı. Onun "Töhfeyi-bənat, yainki qızlara hədiyyə" əsəri bu baxımdan qiymətlidir. Əsərin əlyazması:



Əsər qızların maariflənməsi üçün sanballı dərslikdir.

Ədibin "Qızlara hədiyyə" əsərində əksini tapan qiymətli fikirlər müasir dövrdə də öz əhəmiyyətini qorumaqdadır. Onun "Heykəli-insana bir nəzər", "Kəblə Nəsir", "Puşkin", "Müxtəsər coğrafiya risaləsi" və sair bu kimi əsərləri mühüm əhəmiyyət kəsb edir. Pedaqoji fəaliyyəti ilə bilavasitə bağlı olan ədəbi irsi qəzəllərdən (300-dən çox), "Məsnəviyyati-mənəviyyə" adlı irihəcmli mənzumədən, "Kəblə Nəsir" mənzum hekayətindən, "Heykəli-insana bir nəzər" ədəbi-fəlsəfi traktatından (1912-ci ildə kitab halında çap edilmişdir), 20-dən çox hekayədən ibarətdir. Sidqi Azərbaycan uşaq nəsrinin ilk yetkin nümunələrini yaratmışdır. "Məktəb hekayələri" kimi tanınan bu əsərlərdə ("Məktəbə davam", "Gözütox uşağın hekayəti", "Yalançı uşaq", "Səxavətli uşaq" və sair) o, özünün maarifçilik ideyalarını, pedaqoji görüşlərini, insana məxsus yüksək mənəvi-əxlaqi keyfiyyətləri bədii şəkildə təbliğ etmişdir. Onun təşəbbüsü ilə "Tərbiyə" məktəbində A.S.Puşkinin anadan olmasının 100 illik yubileyi keçirilmiş (1899), bu münasibətlə Sidqi məruzə etmişdir (məruzə 1914-cü ildə kitabça halında çapdan çıxmışdır). Həmin kitabça:



Məhəmməd Tağı Sidqi yaradıcılığı öz aktuallığı ilə indi də təravətini qoruyub saxlamaqdadır. Bu baxımdan onun əsərlərini mühafizə edib gələcək nəsillərə çatdırmaq bu günün ziyalılarının üzərinə düşən vəzifələrdəndir. XIX əsr Naxçıvan ədəbi mühitində parlayan maarifçilik günəşinin istisini üzərimizdə daim hiss etmək bizim üçün ən böyük xoşbəxtlik olacaq. Bunu bizə yaşadanlara minnətdarlığımızı bildiririk.

**Nərgiz İSMAYILOVA**

# 132-ci teatr mövsümü "Kuklalar evi" tamaşası ilə açılıb

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı böyük Norveç dramaturqu Henrik İbsenin (1828-1906) "Kuklalar evi" üçpərdəli psixoloji dramı ilə 132-ci teatr mövsümünü açmışdır. Tamaşa başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov çıxış edərək yeni teatr mövsümünün açılışı münasibətilə teatrsevərləri təbrik etmişdir.***

Qədim yurdun sənət ocağının keçdiyi inkişaf yolundan danışan nazir qeyd etmişdir ki, Azərbaycan dramaturgiyasının ən gözəl nümunələri məhz Naxçıvan teatrının səhnəsində tamaşaçı rəğbəti qazanmışdır.

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev çıxış edərək teatrın yaradıcılıq ənənələrindən və bu mövsüm səhnəyə qoyulacaq əsərlərdən danışmışdır.

Sonra Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının böyük Norveç dramaturqu Henrik İbsenin "Kuklalar evi" (1879) üçpərdəli psixoloji dramı əsasında hazırladığı tamaşa teatrsevərlərə təqdim edilmişdir. Avropada yeni dramaturgiyanın yaradıcısı, sosial-psixoloji dramın banisi kimi tanınan Henrik İbsenin "Kuklalar evi" əsərində insanın daxili aləmi, sosial ziddiyyətləri, ümumbəşəri problemləri real hadisələrin inkişafı fonunda ortaya qoyulur.

Tamaşada hadisələr vəkil Torvald Helmerin ailəsinin yaşadığı evdə cərəyan edir. İlk səhnədə bu ailə xoşbəxt ailələrdən biri kimi təqdim olunur. Torvald Helmer (aktyor Elnur Rzayev) həqiqəti sevən, öz işini bilən məmur təsiri bağışlayır. Səkkiz il bundan əvvəl ailə qurduğu Nora ilə (aktrisa Nurbəniz Niftəliyeva) çox mehriban həyat sürürlər, uşaqları var. Nora da bu həyatdan razıdır. Lakin hadisələrin tədrici inkişafı insan xarakterinin, xüsusilə tamaşanın bu iki əsas obrazının xarakterinin açılmasını göstərməklə, insan qəlbinin dərin psixoloji qatlarına enməklə ictimai-bəşəri məsələləri göstərir, tamaşaçını dərin düşüncələrə sövq edir.





Dramaturq əsərin proloqunda bu ailəni xoşbəxt göstərsə də, tamaşada hadisələr cərəyan etdikcə hiss olunur ki, əslində, bu ailəni xoşbəxtlik gözləmir. Hadisələr cərəyan etdikcə aydın olur ki, Torvald Helmer ağır xəstəlik nəticəsində ölüm qarşısında qaldığı zaman Nora atasının əvəzinə bank bekzelinə (bankdan pul götürmək üçün müqavilə) saxta imza ataraq pul götürmüş və qənaət yolu ilə borcunu ödəməkdədir. Ərinin isə bu məsələdən xəbəri yoxdur. Bu saxta işi bilən isə ancaq Helmerin müdiri olduğu bankın kiçik məmurlarından Kroqstaddır. Kroqstad (Azərbaycan Respublikasının əməkdar artisti Bəhruz Haxverdiyev) saxtakar işlərinə görə bir neçə dəfə cəzalandırılmışdır. Torvald Helmerin onu işdən azad edəcəyini görən Kroqstad Noraya müraciət edərək saxta işini ifşa edəcəyini bildirir. Helmer Noranın işdən çıxarmamaq xahişini rədd etdikdə isə ailədəki vəziyyət daha da dramatikləşir.

Tamaşanın son hissəsi – epiloqdakı ər və arvadın söhbəti əsərin əsas ideyasını ortaya qoyur. Noranın dediyi: "Evimdə olduğum vaxt atam mənim hər bir hərəkətimi öz öyüdlərinə uyğunlaşdırmağı tələb edirdi. Mən onun kuklası idim. Sonra sənin kuklan oldum... Sən evdə hər şeyi öz zövqünə görə düzəldirdin. Sənin zövqün mənim zövqüm idi... İndi keçmişə nəzər saldığım vaxt görürəm ki, bu ailədə mən kölə vəziyyətində yaşamışam... Mən şən idim, lakin xoşbəxt deyildim..." sözləri onu göstərir ki, vəzifəsini üstün tutan Helmer Noranı qiymətləndirə bilmir və Nora ailəsini tərk edir.

Tamaşanın digər personajları – Kroqstad (Azərbaycan Respublikasının əməkdar artisti Bəhruz Haxverdiyev), həkim Rank da (Azərbaycan Respublikasının xalq artisti Şirzad Abutalıbov) təcrübəli aktyorlarımızın ifasında uğurla təqdim edilmişdir. Onlar psixoloji anları tamaşaçıya çatdırmağa müvəffəq olmuşlar. Nora və Torvald Helmerlərdən sonra tamaşanın daha çox səhnədə görünən, yaddaqalan surətləri onlardır.

Tamaşada rol almış aktrisalar Nazlı Hüseynquliyevanın (Frü Linne), Zülfiyyə Zeynalovanın (Anne Marie), Şölə Novruzbəylinin (xidmətçi), aktyor Anar Eyvazovun da (kuryer) tamaşanın yüksək səviyyədə təqdimindəki uğurlu əməkləri qiymətləndirilməlidir.

Tamaşanın quruluşçu rejissoru Tofiq Seyidov Azərbaycan səhnəsində ilk dəfə Naxçıvanda tamaşaya qoyulan "Kuklalar evi" dramını uğurla təqdim edə bilmişdir. Rejissor əsas ideyanı düzgün açmaqla yaddaqalan səhnələrə diqqət yetirməyi bacarmışdır. Tamaşanın quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əbülfəz Axundovun tərtibatı da diqqətəlayiqdir.

*Tamaşanın musiqi tərtibatçısı Fətəli Axundzadənin uğurlu musiqi seçimi və duyumu tamaşada aydın hiss olunur. Xüsusilə Norveç klassik musiqisinin banisi, dünya şöhrətli bəstəkar Edvard Qriqin lirik əsərlərindən istifadə edilməsi tamaşanın psixoloji aurası ilə üst-üstə düşür.*

**Əli RZAYEV**

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Filarmoniyasında Aşıq Nabatın (1914-1973) 100 illik yubileyi münasibətilə tədbir keçirilmişdir.***

# Aşıq Nabatın 100 illik yubileyi qeyd edilib

Tədbiri giriş sözü ilə Mədəniyyət və Turizm Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Əli Rzayev açaraq Azərbaycan aşıq poeziyasının qədim və zəngin tarixə malik olduğunu bildirmiş, aşıq sənətinin ulu Naxçıvan torpağında da özünəməxsus ənənələrlə inkişaf etdiyini vurğulamışdır.

Qeyd edilmişdir ki, 2009-cu ildə YUNESKO tərəfindən Azərbaycan aşıq sənətinin qeyri-maddi mədəni irs siyahısına salınması ölkəmizdə incəsənətin bütün sahələri ilə yanaşı, aşıq sənətinin də yaşadılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir.

"Muxtar respublikada da bu sahədə mühüm işlər görülmüşdür", – deyən Əli Rzayev bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamı xalq yaradıcılığına göstərilən diqqət və qayğının ifadəsi olmaqla, bu sahədə mühüm tədbirlərin reallaşmasına rəvac vermişdir.

Bildirilmişdir ki, Naxçıvan aşıq mühitinin yetişdirdiyi ustad aşıqlardan biri olan Şərur torpağının yetirməsi Aşıq Nabatın da bu sənətin inkişafında özünəməxsus xidmətləri olmuşdur.

Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Nizami Əzizəliyev çıxış edərək Aşıq Nabatın həyatından, şeir və dastan yaradıcılığından bəhs etmişdir. Qeyd edilmişdir ki, Aşıq Nabat öz dövrünün tanınmış aşıq qadınlarından olmuşdur.

Məruzəçinin sözlərinə görə, Aşıq Nabat dövrünün böyük sənətkarları Ü.Hacıbəyli, X.Şuşinski, S.Şuşinski, Z.Adıgözəlov, Q.Pirimov, Xalq şairi S.Vurğunla tanış olmuş, onların sənət haqqında məsləhətlərindən faydalanmışdır. Məlahətli səsi və şeir yazmaq istedadı onu qadın aşıqların ön cərgəsinə çıxarmışdır. Peşəkar və yaradıcı bir aşıq kimi tanınması Aşıq Nabatı böyük sənətkarımız Üzeyir Hacıbəylinin Bakıya dəvət etməsinə səbəb olmuşdur. Aşıq Nabatın şeir, gəraylı, qoşma, bayatı və deyişmələri onu yaradıcı aşıq kimi tanıtmışdır.

Tədbirin bədii hissəsində Xalq artisti Həsən Ağasoyun ifasında Aşıq Nabatın "Mənim", "Bu dünyada", "Yaxşıdır" qoşmaları bədii qiraət edilmişdir.

Naxçıvan Aşıqlar Birliyinin üzvü, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Tural Bağırov, birliyin üzvləri Könül Taroyeva, Aydın Cəfərov, Naxçıvan Musiqi Kollecinin tələbəsi Səkinə Həsənova saz havaları üstündə Aşıq Nabatın yaradıcılığından nümunələr ifa etmişlər.

**Xəbərlər şöbəsi**

## Gənclər “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini ziyarət ediblər



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və “Gənc Vətənpərvərlər” İctimai Birliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin 60-a yaxın tələbəsinin “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə gəzintisi təşkil olunmuşdur.*

Gənclərə muzeydəki eksponatlar haqqında məlumat verilmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasında olan abidələr arasında “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin mühüm əhəmiyyəti vardır. Orijinal tərtibatı ilə seçilən muzeydə Naxçıvan Muxtar Respublikasının ərazisində aşkarlanan tarixi əşyalar xronoloji ardıcıllıqla nümayiş etdirilir. Eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliklərə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyim hissələri muzeyin qiymətli eksponatlarındandır.

Qeyd olunmuşdur ki, belə abidələr Azərbaycan xalqının tarixinin, mədəniyyətinin və adət-ənənələrinin qədim köklərə malik olduğunu göstərir. “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarının əsrlər boyu Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi olduğunu və bu torpağın antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zənginliyini sübut edir.

Tələbələr Nuh Peyğəmbərin məzarüstü türbəsini də ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov bildirmişdir ki, belə tədbirlər gələcəkdə də davam etdiriləcək, muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin tələbələrinin ayda iki dəfə olmaqla müxtəlif muzeylərə, tarixi abidələrə gəzintiləri təşkil olunacaqdır.

✍ **Sara ƏZİMOVA**

## Peyntbol üzrə muxtar respublika birinciliyi





Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Atıcılıq Mərkəzində peyntbol üzrə muxtar respublika birinciliyi keçirilib. On altı komandanın iştirakı ilə təşkil olunan birincilikdə muxtar respublikanın rayon və şəhərlərinin, həmçinin ali və orta ixtisas təhsili müəssisələrinin, ictimai birliklər və Heydər Əliyev adına Hərbi Liseyin komandaları birinci yer uğrunda mübarizə aparıblar. Olimpiya sistemi üzrə keçirilən birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, “Gənc Vətənpərvərlər” İctimai Birliyinin sədri Tahir Məmmədli təşkil olunan yarışın məqsədi, mahiyyəti və qaydaları barədə məlumat veriblər.

Sonra yarışa start verilib. Birincilikdə bütün rəqiblərini üstələyən Babək rayonunun komandası həlledici oyuna vəsiqə qazanıb. Onların bu mərhələdəki rəqibi Gənclərin İntellektual İnkişaf Mərkəzinin komandası olub. Bu görüşdə daha üstün olan babəklilər birinciliyin qalibi adını qazanıblar. Naxçıvan Dövlət Universitetinin və “Gənc Vətənpərvərlər” İctimai Birliyinin komandaları yarışı 3-cü pillədə başa vurublar.

Sonda qaliblərə nazirlik tərəfindən diplom və kuboklar təqdim olunub.

## Naxçıvanda bədii gimnastikaya maraq artır

***2015-ci ildə ilk dəfə keçiriləcək I Avropa Oyunlarına ev sahibliyi edəcək Azərbaycanda idmanın bütün sahələrinə diqqət artmaqdadır. Artıq respublikanın bütün şəhər və rayonlarında idman obyektləri, komplekslər gənc idmançıların ixtiyarındadır. Onlar isə, öz növbələrində, uğur qazanmaqla Azərbaycan bayrağını beynəlxalq arenalarda dalğalandırır, himnimizi səsləndirirlər. Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafına böyük qayğı göstərilir, gənclərin idmanın müxtəlif sahələrinə cəlb olunması diqqətdə saxlanılır. Məhz bunun nəticəsidir ki, idmanın bütün növləri artıq muxtar respublikada geniş yayılıb, yeniyetmə və gənclərin idmana axını isə gündən-günə artmaqdadır. Belə idman növlərindən biri də dünyada “qadın idmanı” adı ilə tanınan bədii gimnastikadır. Bu idman növü üzrə məşqlərə muxtar respublikada start verilib.***

***Bədii gimnastikanın tarixi***

“Gimnastika” termini e.ə., təxminən, V əsrdə qədim Yunanıstanda təhsil, hərbi və sağlamlıq üçün kompleks hərəkətləri ifadə edirdi. Qədim yunanlar belə hesab edirdilər ki, gimnastika bədənə çeviklik, güc, cəldlik, qədd-qamət, gözəllik verir, insana igidlik və nəciblik hissləri aşılayır. Hazırda gimnastika idmanın ən geniş yayılmış növlərindən biridir və onun 4 növü var:

1. *İdman gimnastikası*
2. *Bədii gimnastika*
3. *Akrobatik gimnastika*
4. *Tamblinq*

Aktyorluq, balet, musiqi və pantomim ilə birlikdə edilən bədii gimnastika turnirlərində yalnız qadın idmançılar iştirak edirlər. 1984-cü ildə Yay Olimpiya Oyunlarına daxil edilən bədii gimnastikanın özünəxas qaydaları və qiymətləndirmə sistemi var.

Azərbaycanda bədii gimnastikanın yaranma və inkişaf tarixi keçən əsrin 40-cı illərinə təsadüf edir. 1961-ci ildə Lina Vinnikova keçmiş SSRİ yığmasının tərkibində Almaniyada keçirilən I Ümumdünya Gimnastika Turnirində iştirak edərək Azərbaycanı dünya arenasında gimnastika üzrə ilk dəfə təmsil edən idmançı kimi tarixə düşüb.

Bu gün Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Digər idman növləri ilə yanaşı, bədii gimnastika da diqqətdən kənarda qalmayıb. Azərbaycan Gimnastika Federasiyasının məqsədyönlü və səmərəli fəaliyyəti nəticəsində bu gün ölkədə gimnastika, sözün əsl mənasında, özünün yeni inkişaf mərhələsinə qədəm qoyub.

***Məşqlərə start verilib***

Dinamik inkişaf edən və həyatın bütün sahələrində daim uğur qazanan muxtar respublika idmanında artıq yeni səhifə açılıb. Elit idman növü kimi tanınan gimnastika məşqlərinə Naxçıvanda start verilib. Azərbaycanın idman ustası Humay Qafarovanın rəhbərliyi altında bədii gimnastika ilə 3-11 yaş arası qızlar məşğul olurlar. Məşqçi-müəllimlə söhbətimizə bu idman növünə Naxçıvanda olan maraqdan başladıq:

“İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məşqlər üçün bizə yer ayrılıb. Hələ məşqlərdə iştirak edən uşaqların sayı bir qədər azdır. Artıq bu yaşda (3-11 yaş arası) olan qızlarımızı bədii gimnastikaya cəlb etmək üçün bağçalara, daha dəqiq desəm, uşaqların valideynlərinə müraciət etmişəm. Onların hamısı bu addımı yüksək qiymətləndirir. Hər həftənin bazar ertəsi, çərşənbə və cümə günləri saat $9^{00}$-dan $10^{30}$-a və $13^{30}$-dan $15^{00}$-dək məşqlərimiz olur. Gimnastika elastiklik tələb etdiyindən bu növə uşaq vaxtlarından başlamaq lazımdır. Yəni 3-11 yaş arası qızlarımız məşğul ola bilərlər. Bizim məqsədimiz bu idman növünü muxtar respublikada geniş yaymaq və daha çox uşaq cəlb etməkdir. Bunun üçün artıq Gənclər və İdman Nazirliyi ilə birlikdə işlərə başlamışıq. İnanıram ki, qısa vaxt ərzində bədii gimnastika Naxçıvanda ən çox sevilən idman növü olacaq”.

Respublikanın idman ustası olan H.Qafarova sonda yaradılan şəraitə, göstərilən diqqətə görə minnətdarlığını bildirdi: “Muxtar respublika rəhbərinin idman sahəsinə diqqəti nəticəsində idman komplekslərinin tikilməsi gənclərin bu sahəyə axınını sürətləndirir. Qısa vaxt kəsiyində bədii gimnastikanın geniş yayılacağına inanıram”.

✍ **Ceyhun MƏMMƏDOV**

***Əgər biz “antibiotik” sözünün mənasını araşdırsaq onda görərik ki, o, iki latın sözündən ibarətdir: “anti – əks”, “bio – həyat” deməkdir. Bu iki komponentin birlikdə ifadə etdiyi məna isə antibiotik “həyatın əksi”, həyatı dayandırmaq deməkdir. Bilmək lazımdır ki, antibiotiklərin təkcə zərərli mikroorqanizmlər üçün deyil, ümumiyyətlə, canlılar üçün də zərərli təsirləri vardır. Bu barədə aşağıda danışacağıq.***

## Antibiotiklər bizim “dostumuz” və “düşmənimiz”dir

Antibiotiklər bioloji və kimyəvi sintez yolu ilə alınaraq cüzi qatılıqları ilə mikroorqanizmlərin inkişafını ya dayandıran, ya da onları tamamilə məhv edən dərman preparatlarıdır.

1928-ci ildə ingilis alimi Fleminq ilk dəfə olaraq kif göbələklərini bərk qidalı mühitdə becərərək onun antoqonist xassəyə malik olduğunu müəyyən etmişdir.

Hələ XI-XII əsrlərdə Şamaxı rayonunun Məlhəm kəndində həkimlər kif göbələklərindən məlhəmlər hazırlayıb irinli yaraların müalicəsində istifadə etmişlər. Kif göbələklərindən 1941-ci ildə ilk dəfə Ceyn Tlori tərəfindən penisillin əldə olunmuşdur. Amerikalı alim Z.A.Vaksman ilk dəfə şüalı göbələklərdən “strteptomyan” deyilən antibiotik almış və onu vərəm xəstəliyinin müalicəsində istifadə etmişdir.

Antibiotiklər, əsasən, göbələk, bitki və heyvanlardan alınır. Ancaq qeyd etmək lazımdır ki, antibiotiklərin bəziləri son zamanlar sintez yolu ilə əldə olunur. Məsələn, sarımsaq və soğandan alınan allisini antibiotikini buna misal göstərmək olar.

Bu gün elmdə 100-dən çox antibiotik preparatı olmasına baxmayaraq, onlardan orqanizm üçün daha az əlavə təsirlərə malik olan antibiotiklərdən istifadə olunur. Hətta az əlavə təsirlərə malik olmasına baxmayaraq, bu antibiotiklərdən istifadə allergik təsirlərdən tutmuş orqanizmin vacib funksiyalarının pozulması hallarına da səbəb ola bilər. Antibiotiklər hazırda bir çox xəstəliklərin müalicəsində istifadə edilir. Antibiotik ancaq həkim tərəfindən dəqiq göstərişlər əsasında təyin olunur. Xəstənin özbaşına və yaxud hər hansı bir dostunun, tanışının məsləhətilə antibiotik qəbul etməsi düzgün deyil. Antibiotiklərin istifadəyə başlanılmasından uzun illər sonra tibb elmi müəyyən etdi ki, mikroorqanizmlər mutasiya etmək (gen dəyişikliyi) və müalicədə işlədilən antibiotiklərə qarşı davamlılıq əldə etmək qabiliyyətinə malikdirlər. Bu xüsusiyyət, yəni mikroorqanizmlərin antibiotiklərin öldürücü təsirinə qarşı dura bilməsi onların hüceyrələrinin daxilində və xarici divarında gedən dəyişikliklərin hesabına baş verir. Hətta bəzi mikroorqanizmlər xüsusi ferment ifraz edirlər. Hansı ki bu ferment antibiotiklərin təsirini zəiflədir. Bu yolla qazanılmış davamlılıq mikroorqanizmlərin genləri vasitəsilə onların gələcək nəsillərinə ötürülür.

Antibiotiklərə qarşı davamlılığın yaranması isə təbii olaraq yeni antibiotiklərin yaranmasına səbəb olur. Bu mənada antibiotiklərdən səmərəli istifadə edilməlidir.

Yuxarıda qeyd etdiyimiz kimi, yeni kəşf edildiyi vaxt, elə indinin özündə də antibiotiklər milyonlarla insanın həyatını xilas etmişdir. Antibiotik təyin edərkən yaxşı olar ki, ona qarşı həssaslıq da təyin edilsin. Antibiotik təyin edərkən xəstədəki bir sıra amillər nəzərə alınmalıdır: məsələn, xəstənin yaşı, hamiləlik, böyrəklərin və qaraciyərin funksiyasının vəziyyəti və sair. Elə antibiotiklər var ki, onu hamilə qadınlara tətbiq etmək olmaz. Yaxud yaşlı adamlara təyin edilən antibiotiklərin dozası ümumi dozanın 1/4 hissəsi qədər azaldılmalıdır. Yaxşı olar ki, ömründə heç bir antibiotik almayan xəstəyə geniş spektrli antibiotik təyin edilməsin.

Belə bir fikir yanlışdır ki, antibiotiklərlə istənilən infeksiyanı müalicə etmək olar. Məsələn qrip, kəskin respirator infeksiyaları və hepatitlər zamanı antibiotiklərdən istifadə olunması düzgün deyil. Çünki qrip və digər virus infeksiyalarının səbəbi adından göründüyü kimi, viruslardır. Antibiotiklər isə viruslara təsir etmir. Kəskin respirator virus infeksiyaları ancaq ağırlaşmalar verdiyi zaman antibiotiklərdən istifadə etmək olar. Məsələ ondadır ki, bəzi hallarda antibiotiklərsiz ötüşmək olmur.

Bir çox xəstəliklərin, o cümlədən pnevmoniya (ağciyərlərin iltihabı), pielonefrit (böyrəklərin iltihabı), haymorit (burunətrafı cibin iltihabı), abses, sepsis kimi xəstəliklərin müalicəsində antibiotiklər əvəzolunmazdır. Antibiotiklərin köməyi olmasa, bu xəstəliklər ağır fəsadlar verə, hətta ölümlə nəticələnə bilər.

Səmərəsiz istifadə olunduqda antibiotiklərin aşağıdakı mənfi nəticələri ola bilər:

- *qaraciyər və böyrəyin funksiyası pozula bilər;*
- *antibiotiklərin istifadəsi zamanı disbakterioz halı əmələ gələ bilər (disbakterioz antibiotik təsirindən bağırsaq florasında insan orqanizmi üçün xeyirli olan mikrofloranın məhv olmasıdır);*
- *nəhayət, ən arzuolunmayan hal isə antibiotiklərə qarşı davamlılığın əmələ gəlməsidir.*

Yekun olaraq deyə bilərik ki, antibiotiklər səmərəli istifadə olunarsa, “dostumuz”, səmərəsiz istifadə olunarsa, “düşmənimiz”dir.

**Məmmədəli ƏLƏKBƏROV**
***Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimi***

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi
### 2014-cü il üçün kotirovka elan edir

*Payız-qış mövsümü üçün əşya əmlaklarının satın alınması*

Kotirovka 10 oktyabr 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 11 oktyabr 2014-cü il tarixdə saat $11^{00}$-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Murad Cabbarov***
***Telefon/faks: 544-48-34***
***Ünvan: Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi***


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Elnur Kəlbizadə

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 825**